*UOT 37.01*

***Zərifə Mahmud qızı Həmidova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının müəllimi,*
*Həsən Əliyev adına Coğrafiya İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı*
*E-mail: zerifehemidova16@mail.ru*
*https://orcid.org/0000-0002-5041636*
*https://doi.org/10.69682/arti.2025.92(6).86-90*

# TƏLİMİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA YENİ ÖYRƏNMƏ MODELLƏRİNİN ROLU

***Zarifa Mahmud Hamidova***
*lecturer of Shamakhi branch of Azerbaijan State Pedagogical University*
*doctorial student in the program of doctor of philosophy*
*at the Institute of Geography named after Hasan Aliyev*

# THE ROLE OF NEW LEARNNG MODELS IN IMPROVING THE QUALITY OF TRAINING

***Зарифа Махмуд гызы Гамидова***
*преподаватель Шамахинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*
*диссертант по программе доктора философии Института географии имени Гасана Алиева*

# РОЛЬ НОВЫХ МОДЕЛЕЙ ОБУЧЕНИЯ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБУЧЕНИЯ

**Xülasə.** Bu məqalədə fəal öyrənmə modellərinin təlim prosesində xüsusi yeri olduğundan bəhs olunur. Fəal öyrənmə şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə nəzəriyyələrindən olan konstruktivlik, müasir dövrdə faydalı, böyük təcrübi və həyati əhəmiyyəti olan bir nəzəriyyə kimi qəbul olunmuşdur. Öz mahiyyətinə görə konstruktiv öyrənmə, bilik əldə etmə haqqında elə nəzəriyyələr qrupuna aiddir ki, onun həlledici əsasını biliyin, yeni ideyaların əvvəlki biliklərlə sintezinin əsasında yaradılması təşkil edir, yəni biliklər sistemi passiv şəkildə deyil, insanların fəal həyat təcrübəsi əsasında yaranır.
***Açar sözlər:*** *Təlim prosesi, öyrənmə modelləri, konstruktivizm, nəzəriyyələr*

**Abstract.** This article discusses the special place of active learning models in the learning process. Active learning is a necessary learning that helps students achieve their goals in their future professions, activities, personal and social lives, and develop as complete people. Constructivism, one of the theories of active learning, has been accepted as a useful, practical and vital theory in modern times. By its nature, constructive learning belongs to a group of theories about knowledge acquisition, the decisive basis of which is the creation of knowledge, new ideas based on the synthesis of previous knowledge, that is, the knowledge system is created not passively, but on the basis of people's active life experience.
***Keywords:*** *Learning process, learning models, constructivism, theory*

**Аннотация.** В данной статье рассматривается особое место моделей активного обучения в учебном процессе. Активное обучение – это необходимое обучение, помогающее учащимся достигать своих целей в будущей профессии, деятельности, личной и общественной жизни и развиваться как полноценным личностям. Конструктивизм, одна из теорий активного обучения, признан полезной, практичной и жизненно важной теорией в наше время. По своей природе конструктивное обучение относится к группе теорий о приобретении знаний, решающей основой которых является создание знаний, новых идей на основе синтеза предыдущих знаний, то есть система знаний создается не пассивно, а на основе активного жизненного опыта человека.
***Ключевые слова:*** *учебный процесс, модели обучения, конструктивизм, теории*

Təlim və təlim prosesi haqqında hələ orta əsirlərdən başlayaraq bu günümüzə qədər dahi filosoflar və pedaqoqlar qiymətli fikirlər söyləmiş, bu sahədə bir çox tədqiqatlar aparmışlar. Lakin təlimin mövzusu, təlim prosesi problemi həmişə mübahisə və diskussiyalar doğurmuşdur. Bu da təbiidir. Çünki pedaqoji prosesin tərkib hissəsi olan təlim prosesi əvvələn, çox mürəkkəb və müxtəlif fərdi, iradi, xarakter xüsusiyyətlərinə malik olan insanla bağlıdır.(2)

Təlim prosesinin əsasını təşkil edən və bir-biri ilə üzvi əlaqədə olan məqsəd, məzmun, forma və vasitə kimi komponentlərin ümumi vəzifəsi böyüyən gənc nəsli kamil insan kimi formalaşdırmaqdır.

Kamil insan – ən yüksək insani keyfiyyətləri, mənəvi dəyərləri özündə cəmləşdirən və fəaliyyət prosesində ona əməl edən şəxsiyyətdir. O, təbiət, cəmiyyət və insan təfəkküründə gedən proseslərdən baş çıxarır, dünyanın qanunauyğun inkişaf və dəyişmə istiqamətlərini bilir, hadisələrin gedişinə təsir göstərməyi və onlardan qarşılıqlı faydalanmağı, insanlara xeyir verməyi bacarır, hamıya, hər yerdə haqqın, ədalətin, həqiqətin qoruyucusu, insanlıq etalonu kimi çıxış edir.

Bu keyfiyyətlərə malik insanların yetişdirilməsi, böyüyən gənc nəslə nələri, nə üçün və necə öyrətməyi və təlimin məzmunu və metodları tədris prosesinin aparıcı dayaqları kimi funksiyaları yerinə yetirir. Ona görə təlimin məzmunu, təlim-tərbiyə metodları bütün dövrlərdə aktuallığını qoruyub saxlamış və pedaqoji-psixoloji tədqiqatların obyektinə çevrilmişdir Metodiki vəsait UNİCEF və Azərbaycan Respublikası Təhsil Nazirliyini 2000/2004-cü illərdə həyata keçirdiyi fəal təlim və məktəb rəhbərliyi layihəsi çərçivəsində tərəfimizdən 1999-cu ildə hazırlanmış orijinal "fəal təlim konsepsiyası" na əsaslanır. Bu konsepsiya 2000/2006-cı illər ərzində UNİCEF tərəfindən dərc olunmuş və çoxlu sayda məktəb müdiriyyəti, ibtidai və orta məktəb müəllimləri, pedaqoji universitetlərin və müəllimlərin ixtisasartırma institutlarının müəllimləri üçün treninqlərdə tətbiq olunaraq sınaqdan keçirilmişdir və geniş təcrübə qazanmışdır. Dərs vəsaiti. I cild UNİCER, səh.4. Bakı – 2002.

İnsan təfəkkürü daim axtarışda olduğundan təbiətin, cəmiyyətin inkişafının yeni-yeni qanun və qanunauyğunluqlarını açır, elmi-texniki tərəqqi durmadan inkişaf edir. Ona görə də təlimin məzmunu daim yeniləşdirilməli, dərinləşdirilməli, obyektiv gerçəkliyə daha çox yaxınlaşma istiqamətində inkişaf etdirilməlidir. Bu da öz növbəsində, öyrətmə və öyrənmə proseslərinin metod və vasitələrinin müntəzəm təkmilləşdirilməsini irəli sürür.

Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşfi xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən, öyrənmədə çox faydalı bir prosesdir.

Bu halda öyrənmənin mərkəzində fəal şagird dayanır, proses müəllim və şagirdin qarşılıqlı münasibətləri, şagird və mənimsənilməli məzmun, şagird və onun əhatəsi kontekstində araşdırılır. Şagird onun mənasını başa düşür, dərk edir, hafizə süzgəcindən keçirir, öyrəndikləri onun üçün böyük məna kəsb edir. Belə öyrənmə mexaniki hafizəyə deyil, nəzəri (tənqidi) təfəkkürə istinad edir və şagirdin idrak fəallığının yüksəlməsinin təminatçısı olur.

Fəal öyrənmə nəzəriyyələrindən olan konstruktivlik, müasir dövrdə faydalı, böyük təcrübi və həyati əhəmiyyəti olan bir nəzəriyyə kimi qəbul olunmuşdur. Öz mahiyyətinə görə konstruktiv öyrənmə, bilik əldə etmə haqqında elə nəzəriyyələr qrupuna aiddir ki, onun həlledici əsasını biliyin, yeni ideyaların əvvəlki biliklərlə sintezinin əsasında yaradılması təşkil edir, yəni biliklər sistemi passiv şəkildə deyil, insanların fəal həyat təcrübəsi əsasında yaranır. Zülfiyyə Veysiova Fəal interaktiv təlim. Müəllim üçün dərs vəsait. Səh.138-127.

Bilik "qurulur, kəşf edilir, yaradılır" anlama üzərində bərqərar olan, biliyin və öyrənmənin təbiəti, mahiyyəti haqqında fəlsəfi fikirlər sistemi epistemologiyanı öz fəlsəfi əsası hesab edən konstruktivliyin əsas prinsipi bilik passiv şəkildə alına bilməz və şagirdlər öyrənmə prosesində fəal olmalıdırlar kimi səciyyələndirilir. Ona görə də azyaşlı uşaqlara müvafiq qaydada, yaşauyğun sərbəstlik verilməli, onlar öyrənmə prosesində fəal iştirak etməlidirlər. Öyrənmə idraki akt kimi mənimsəmə (assimilyasiya), uyğunlaşdırma (akomodasiya) və nizamlama (ekvilibrasiya) proseslərindən ibarət olub aşağıdakı mərhələlərdən keçir:

– keçmiş biliklər əsasında yeni biliklərin əldə edilməsi və mənimsənilməsi;

– fərdi biliklər sisteminin, yeni və daha faydalı biliklərə uyğunlaşdırılmaqla dəyişdirilməsi;

– biliklər sisteminin müxtəlifliyi və ziddiyyətlərindən əmələ gələn psixi gərginliyin nizamlanması nəticəsində, problemlə bağlı yeni, faydalı dərketmənin əmələ gəlməsi A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 83.

Öyrənmənin hansı formasına (assimilyasiya, akomodasiya və ekvilibrasiya) hazır olmaq uşağın idraki inkişaf mərhələsindən asılıdır. Tədris prosesində müəllimlərin rəhbərliyi altında şagirdlərə yeni ideyaları aşkar etməyə imkan verən yanaşmalar təmin və müdafiə olunmalı, yeni pedaqoji texnika – "kəşf etməklə öyrənmə" təlim prosesində əsas götürülməlidir. İdeyaların, ayrı-ayrı fənlərin, konsepsiyaların şagirdlərin idraki səviyyələrinə uyğun olaraq artan çətinlik mücərrədləşdirmənin məzmunda formalaşdırılması, spiralvari proses kimi qəbul edilməli, bazis tədris planının hazırlanmasında nəzərə alınmalıdır.

Mövcud və yeni biliklər sistemi arasında idraki və sosial münasibətləri tamamlayan konstruktivlik belə bir fundamental mülahizəyə əsaslanır ki, insanlar yeni bilikləri mövcud olan bilik və bacarıqları vasitəsilə, üzləşdikləri yeni ideya və situasiyalar arasındakı qarşılıqlı münasibətlər əsasında qazanırlar.(2)

Ona görə də şagirdlərin mövcud bilikləri ilə yeni ideyaları arasındakı qarşılıqlı münasibətlər gücləndirilməli və tədris prosesi bu prinsiplər əsasında qurulmalıdır. Biliyin əldə edilməsinə belə yanaşma ənənəvi "biliyin ötürülməsi" modelindən tamamilə fərqlənir, ənənəvi öyrənmə modelinə əsasən müəllimlər biliyi şagirdlərə çatdırmalı və onların ağ lövhə hesab edilən beyninə yazmağa çalışmalıdırlar.

Lakin hazırda insan beyninin ağ lövhə olmadığını sübut edən çoxlu nəzəriyyə və məntiqi fikirlər, təcrübi faktlar aşkar edilmişdir. Müəyyənləşdirilmişdir ki, insan beyni zəngin təcrübə, informasiya və biliklərlə əvvəlcədən proqramlaşdırılmışdır. Biliyin aşılanması prosesində mənanı aşkar etməyə cavabdehlik daşıyan biliyin universal idrakı strukturu, yəni ardıcıllıq baxımından məntiqdən əvvəlki təfəkkür konkret təfəkkürdən asılı qalır.

Təhsil işçilərinin məqbul hesab etdikləri konstruktivlik, təlim prosesində müəllimin rolu, biliyin şagirdlər tərəfindən kəşf edilməsi, fərdi və sosial öyrənmənin qarşılıqlı münasibətləri, məktəbdə təlim prosesi ilə bağlı digər vacib məsələlərin aydınlaşdırılması həlledici əhəmiyyətə malik olduğundan, onlar müəllim və şagirdlər arasında formal (test yoxlamaları, fəaliyyətin qiymətləndirilməsi), və qeyri- formal (müzakirələr, sual-cavab debatları, yığıncaqlar) münasibətlər əsasında həyata keçirilməlidir.

Konstruktiv öyrənmə modellərinin əsasını şagirdlərin sinfə müxtəlif məzmunlu və xarakterli ideyalarla gəldiyi prinsipi təşkil etdiyindən, bu təcrübə və ideyalar müəllimlər tərəfindən əhəmiyyətli hesab edilməli və təlim prosesinin təşkilində, şagirdlərin təlim müvəffəqiyyətinin qiymətləndirilməsində nəzərə alınmalıdır.

Konstruktiv öyrənmə modeli əsasında təlim prosesində fəal şagird, sosial şagird və yaradıcı şagird kimi üç fərqli rol müəyyənləşdirilmişdir:

– fəal şagirdlərdə bilik fəal formada mənimsənilir və dərk edilir, şagird mexaniki dinləmək və öyrənmək, şablon xarakterli tapşırıqlar üzərində işləmək əvəzinə, özləri üçün həyati əhəmiyyət kəsb edən problemləri fəal şəkildə müzakirə edir, fərziyyələr irəli sürür, diskussiyaya girir, onları əsaslandırmağa səy göstərir və nəticədə, problemi öz intellektual imkanına uyğun həll edir; Zülfiyyə Veysiova Fəal interaktiv təlim. Müəllim üçün dərs vəsait, s.138-130.

– sosial şagirdlərdə bilik və dərketmə sosial cəhətdən şərtləndirilir, bilik və mənimsəmə yüksək səviyyəli sosial fəaliyyət kimi qiymətləndirilir və biliklər fərdi qaydada deyil, başqaları ilə qarşılıqlı münasibətlər əsasında, obyektiv reallığı şərtləndirən ciddi sosial proseslər nəticəsində qazanılır;

– yaradıcı şagirdlərdə bilik və dərketmə prosesi yaradıcı münasibət əsasında formalaşır və ya yenidən yaradılır. Təlim prosesində elə mühit formalaşdırılır ki, şagirdlər özləri biliyi qazanmaq və ya kəşf etmək ehtiyacı hiss edir, elmi nəzəriyyələrə, tarixi perspektivlərə, sosial və iqtisadi paradiqmalara münasibətdə yaradıcı yanaşmalar əsasında yeni qabiliyyətlər kimi başa düşülməlidir.

Hər kəsdə çoxsaylı müxtəlif əqli qabiliyyətlər olsa da, onların inkişaf səviyyələri fərqlidir. Ona görə də çoxşaxəli əqli qabiliyyətlərdən istifadə edən müəllimlər təlim prosesində tədris etdiyi

fənni şagirdlərə bir neçə əqli qabiliyyətlərdən istifadə edən müəllimlər təlim prosesində tədris etdiyi fənni şagirdlərə bir neçə əqli qabiliyyətlərdən istifadə etməklə, səmərəli öyrənməyə imkan verən üslublarla təqdim etməyə çalışmalıdır. ARTPİ-nin Elmi əsərləri,. 2016, №1, s.256-262

Eyni zamanda tədris müəssisələri və müəllimlər öyrənmə məqsədlərinə və təhsil standartlarının tələblərinə müvafiq təlim prosesini qurduqda, konstruktiv və coxşaxəli əqli qabiliyyətlər üsulunu qarşılıqlı əlaqədə götürməli və onun hər bir kateqoriyasından səmərəli istifadə etməklə öyrənmə prosesini təşkil etməlidir. İnsanların əqli qabiliyyətlərini müxtəlif tədqiqatçılar müxtəlif formada qruplaşdırsalar da, hazırda öyrənmə prosesində onların yeddi kateqoriyada və ya əqli qabiliyyətlərdə qruplaşdırılmasına üstünlük verilir:

– Linqivistik əqli qabiliyyət – sözləri istər şifahi, istərsə də yazılı formada səmərəli işlətmək və təfəkkürün sözlərlə inkişaf etdirilməsi qabiliyyətidir. Bu əqli qabiliyyətə dilin sintaksisi və ya quruluşunu, dilin fonologiyası və ya səslərini, dilin semantikası və ya mənalarını, dilin praqmatik ölçüləri və ya təcrübi istifadələrini manipulyasiya etmək bacarığını ait etmək olar. Sözlərdən belə istifadə növlərinə ritorika (təlim prosesində müvəffəqiyyət qazanmaq üçün şagirdləri müəyyən hərəkətlər etməyə inandırmaq məqsədi ilə dildən istifadə olunması), mnemonika (məlumatı uzun müddət yadda saxlamaq, yeri gəldikcə ondan səmərəli istifadəni təmin etmək məqsədilə dildən istifadə olunması), izahat (şagirdləri mütəmadi məlumatlandırmaq üçün dildən istifadə olunması) və metadil (özü haqqında məlumat vermək üçün dildən istifadə olunması) daxildir. A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 89.

– Məntiqi-riyazi əqli qabiliyyət – ədədlərdən səmərəli istifadə etməklə, yaradıcı mühakimə yürütmək və təfəkkürü ədədlərlə inkişaf etdirmək qabiliyyətidir. Bu əqli qabiliyyət, sisteminə real aləmin müxtəlifliyinə, onun rənglərinə, formasına, torpağa, səmaya və bu ünsürlər arasındakı mövcud əlaqələrə qarşı həssaslığı daxil etmək olar. Ədədlərdən istifadə edərək əqli qabiliyyətlərin inkişafında istifadə olunan hadisələrə təlim prosesində böyük ehtiyac duyulan əqli nəticə, ümumiləşdirmə, hesablama, təsnifatlaşdırma, fərziyyələrin sınağı kimi proseslər daxildir.

– Məkanla bağlı əqli qabiliyyət – görmə, real aləmi dəqiq duymaq, bu duyğular üzərində transformasiyanı həyata keçirmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə real aləmin müxtəlifliyinə, onun rənglərinə, formasına, torpağa, səmaya və bu ünsürlər arasındakı mövcud əlaqələrə qarşı həssaslıqları daxil etmək olar. Məkanla bağlı hadisələrə prosesləri vizuallaşdırmaq, proseslər arasındakı qarşılıqlı əlaqələrin qanunauyğunluqlarını qrafik şəkildə göstərmək, real aləmdə məkan daxilində baş verən çoxsaylı hadisələr içərisində öz istiqamətini (oriyentasiyasını) tələb olunan qaydada müəyyən etməyə imkan verən qabiliyyətlər sistemi daxildir. A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 s. 94. (3)

– Kinestetik əqli qabiliyyət – fikirləri və hisləri ifadə etmək, bədən əzələlərindən müxtəlif məqsədlər üçün istifadə etməklə, bədən hərəkətlərini idarə etmək bacarığı, müxtəlif əşyaları hazırlamaq, onlarla davranmaq və onların formasını dəyişdirmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə əlaqələndirmə, tarazlığı saxlamaq, gücündən səmərəli istifadə və tələb olunanda onu müəyyən istiqamətə yönəltmək və ya prosesə uyğunlaşdırmaq, taktil (toxunmaqla hiss edilən, bilinən) bacarıqlarla bağlı əqli qabiliyyətlər daxildir.

– Musiqi ilə bağlı əqli qabiliyyət – bəstəkar kimi musiqi formalarını duymaq və bir ifaçı kimi onu ifadə etmək qabiliyyətidir. Bu əqli qabiliyyətlər sisteminə musiqi parçasının ritminə, intensivliyinə, melodiyasına, tembrinə, ton çalarlarına qarşı həssaslığı, qlobal, intuitiv və ya formal musiqi anlamını, musiqi ilə obrazlılığın formalarını başa düşmə qabiliyyətlərini daxil etmək olar.

– Fərdlərarası əqli qabiliyyət – başqalarının psixi halətini, temperamentini, niyyətini, motivasiyasını, istəklərini fərqləndirmək və müvafiq tərzdə cavablandırmaq, hisslərini duymaq qabiliyyətidir.

– Fərddaxili əqli qabiliyyət – özünü tanımaq və bu tanınma əsasında ailədə, ictimaiyyətdə və cəmiyyətdə müvafiq qaydada hərəkət etmək, öz hislər aləmini tənzimləmək, emosiyalarını cilovlamaq, güclü və zəif cəhətlərini bilmək, ondan səmərəli istifadə etmək, özünüanlama, özünə hörmət, özünütəsdiq, özünüreallaşdırma, özünüqiymətləndirmə, emosiya və hislərini formalaşdırmaq qabiliyyətidir. A.O. Mehrabov: Azərbaycan təhsilinin müasir problemləri. -Bakı: Mütərcim 2007. 448 səh. 105

– Tədris prosesində çoxşaxəli – linqvistik, məntiqi-riyazi, məkanla bağlı, kinestetik, musiqi ilə bağlı, fərdlərarası, fərddaxili əqli qabiliyyətlərdən məktəb rəhbərliyinin və pedaqoji işçilərin təcrübəsindən, mövcud texnika və texnologiyalardan, şagirdlərin özlərinin köməyindən səmərəli istifadə olunması xüsusi hazırlıq tələb edir. Birinci növbədə, sinif mühitini formalaşdıran zaman təlim prosesini müxtəlif əqli qabiliyyətli, müxtəlif fiziki inkişaf səviyyəli, müxtəlif ehtiyacları olan öyrəncilərin tələblərinə uyğunlaşdırmaq lazımdır. Sinif-şagirdlərdən ibarət qrupu formalaşdıran bir mikrocəmiyyət olduğundan, onlardan çoxunun bir-birilə rəqabətdə olan ehtiyacları və maraqları vardır. (6) Qaydalar, onlara əməletmə, rejimlər, müxtəlif münasibətlər, müxtəlif rollar isə sinfin infrastrukturunun əsas hissələri olduğundan, sinifdə şagirdlərin diqqətini toplamaq və onları təlim prosesinin əsas məqsədlərinə istiqamətləndirmək üçün müəllim əqli qabiliyyətlərinin inkişaf strategiyasını ünsiyyət qaydalarını və nizam-intizam metodlarını mükəmməl bilməli və onu fəaliyyətində əsas götürməlidir.(1)

Dərs şagirdlərin mənəvi inkişafına, əxlaqca təkmilləşməsinə, vətənpərvərlik, insanpərvərlik, əməksevərlik ruhunda yetişməsinə xidmət göstərməlidir. Müasir dərs milli təhsilin yaradılmasına yönəlməlidir. müəllimin məqsədyönlü, planlı və mütəşəkkil rəhbərliyi altındakı şagirdlərin öyrəndiyi bilik və bacarıqlar təsadüfi biliklər toplusu deyil, birbaşa cəmiyyətin sonrakı inkişafına yönəlir. [2, s.131].

**Problemin elmi yeniliyi.** Tədris prosesində çoxşaxəli əməletmə, rejimlər, müxtəlif münasibətlər, müxtəlif rollar isə sinfin infrastrukturunun əsas hissələri olduğundan, sinifdə şagirdlərin diqqətini toplamaq və onları təlim prosesinin əsas məqsədlərinə istiqamətləndirmək üçün müəllim əqli qabiliyyətlərinin inkişaf strategiyasını ünsiyyət qaydalarını və nizam-intizam metodlarını mükəmməl bilməli və onu fəaliyyətində əsas götürməlidir.

**Problemin praktik əhəmiyyəti.** Fəal öyrənmə təlim prosesində xüsusi yer tutur. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatda məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışı, kəşfi xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən, öyrənmədə çox faydalı bir prosesdir.

**Problem aktuallığı.** Elmi-texniki tərəqqi durmadan inkişaf edir. Ona görə də təlimin məzmunu daim yeniləşdirilməli, dərinləşdirilməli, obyektiv gerçəkliyə daha çox yaxınlaşma istiqamətində inkişaf etdirilməlidir. Bu da öz növbəsində, öyrətmə və öyrənmə proseslərinin metod və vasitələrinin müntəzəm təkmilləşdirilməsini irəli sürür.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı. Azərbaycan təhsil siyasəti (1998-2004), I kitab. –Bakı, "Çaşıoğlu", –2005. №**1**, –s.256.
2. Kazımov, N. Məktəb pedaqogikası / N. Kazımov –Bakı: 2011. –458 s.
3. Mehrabov A.O. Bəylərov E. B. Şagird intellektinin inkişafı. –Bakı: Adiloğlu, –2007. –448 s.
4. İnsan hüquqları tədrisi. Müəllim üçün metodik vəsait. –Bakı, Norveç Qaçqınlar Şurası, –2003. –s.256.
5. Fəal təlim üzrə numunəvi dərslər toplusu. Dərs vəsaiti. Icild UNİCER, Bakı – 2002. –s.4.
6. Veysova Z. Fəal dərsin aparılması üzrə tövsiyələr. Bakı, Norveç, Qaçqınlar şurası, –2004. –s.153.
7. Veysova Z. Pedaqoji universitetlərin və müəllimlərin təkmilləşdirilməsi institutların müəllimləri üçün fəal təlim metodlarına giriş kursu. Metodik vəsait, UNİCEF, –Bakı, 2002. –s.131.
8. Mehrabov A.O. Təhsildə keyfiyyət, ona nəzarət və idarəolunmasının təşkili xüsusiyyətləri // ARTPİ "Elmi əsərləri", –Bakı, TTM, № 1 , –2005. –s.262.


**Redaksiyaya daxil olub:** 21.11.2025